Folklorşünaslıq: problemlər, tədqiqlər

Füzuli BAYAT
Filologiya elmlər doktoru, professor
AMEA Folklor İnstitutu
E-mail: fuzulibayat58@gmail.com
ORCID ID: 0000-0002-0811-5852
https://doi.org/10.59849/2309-7949.2025.1.51

ŞƏHƏR MÜHİTİ KONTEKSTİNDƏ PEŞƏ FOLKLORUNUN XÜSUSİYYƏTLƏRİ VƏ PEŞƏ QRUPLARININ MƏDƏNİ İFADƏ FORMALARI

Açar sözlər: Peşəkar folklor, şəhər mühiti, Çərçivə nəzəriyyəsi, peşə folkloru

Summary

Characteristics of occupational folklore and cultural expression forms of professional groups in an urban context

Occupational folklore is an integral part of the rich and dynamic cultural expressions that develop in urban environments. This form of folklore reflects the collective consciousness, lifestyle, values, beliefs, and social relations of various professional groups. The rapid changes, technological advancements, and social dynamics of urban life significantly influence the formation and evolution of occupational folklore. This article examines the characteristics of occupational folklore, the uniqueness of occupational jokes, research methodologies, the analysis of professional humor through the lens of frame theory, traditional professions (such as potters, carpet weavers, coppersmiths, etc.) and their folklore samples, as well as the impact of urban life on occupational folklore and its dynamic future.

Occupational folklore manifests itself in the distinct oral expressions of different professional groups. Occupational jokes are among the most vivid and dynamic examples of this folklore. Studying them through frame theory helps in understanding the structure, meaning, and function of occupational folklore. According to this theory, texts are interpreted within a specific frame or context.

Urban folklore encompasses both traditional and modern professional folklore. Traditional professions possess a rich and ancient folklore heritage. Potters, carpet weavers, coppersmiths, and other artisans have created songs, legends, jokes, and other folklore samples that reflect their professional world. These folklore examples embody the technical knowledge, artistic secrets, aesthetic values, and social relations of traditional crafts.

This article also explores how the rapid changes, technological progress, and social dynamics of urban life significantly influence occupational folklore. The research employs a combination of methods, ranging from ethnographic approaches in social anthropology to frame theory.

Key words: Occupational folklore, urban environment, Frame theory.

Резюме

Особенности Профессионального Фольклора и Формы Культурного Выражения Профессиональных Групп в Городской Среде

Профессиональный фольклор является неотъемлемой частью богатых и динамичных форм культурного самовыражения, формирующихся в городской среде. Этот вид фольклора отражает коллективное сознание, образ жизни, ценности, убеждения и социальные отношения различных профессиональных групп. Быстрые изменения городской

среды, технологический прогресс и социальная динамика оказывают значительное влияние на формирование и развитие профессионального фольклора. В данной статье исследуются особенности профессионального фольклора, уникальность профессиональных анекдотов, методы исследования, анализ профессионального юмора с точки зрения теории фреймов, фольклорные образцы традиционных профессий (таких как гончары, ковровщики, медники и др.), влияние городской жизни на профессиональный фольклор и его динамичное будущее.

Профессиональный фольклор проявляется в уникальных устных формах выражения различных профессиональных групп. Профессиональные анекдоты являются одними из самых ярких и динамичных примеров этого фольклора. Изучение их через призму теории фреймов помогает понять структуру, смысл и функции профессионального фольклора. Согласно этой теории, текст понимается в рамках определенного фрейма или контекста.

Городской фольклор объединяет как традиционные, так и современные профессиональные фольклорные образцы. Традиционные профессии обладают богатым и древним фольклорным наследием. Гончары, ковровщики, медники и другие ремесленники создали песни, легенды, анекдоты и другие фольклорные произведения, отражающие их профессиональный мир. Эти образцы фольклора воплощают технические знания, художественные секреты, эстетические ценности и социальные отношения традиционных ремесел.

В статье также исследуется, как быстрые изменения городской жизни, технологический прогресс и социальная динамика существенно влияют на профессиональный фольклор. Для этого использовался комплекс методов — от этнографических подходов в социальной антропологии до теории фреймов.

Ключевые слова: Профессиональный фольклор, Городская среда, Теория фреймов.

Giriş: Şəhər mədəniyyətinin dinamik tərkib hissəsi olan peşə folkloru, peşə qruplarının kollektiv yaddaşını və mədəni kodlarını əks etdirən mürəkkəb sistemdir. Ənənəvi peşə ritualları, mahnılar, deyimlər və lətifələr vasitəsilə formalaşan bu yeni folklor nümunələri, tədqiqatçılara peşə qruplarının daxili həyatına nüfuz etmək üçün əvəzsiz imkanlar yaradır.

Peşə mədəniyyəti, peşə ilə bağlı özəlliklər, biliklər, stereotiplər və s. toplu şəkildə peşə folklorunda əks olunur. Peşə folklorunun əsas mövzusu insanların iş fəaliyyəti ilə bağlı atalar sözü, deyimlər, hekayələr, lətifələr, müdrik sözlər, mahnılar və digər ifadə formalarıdır. Bütün bu altqrup növlərindən peşə sahiblərinin kimliyini, dəyərlərini və ən əsası da peşə mədəniyyətini öyrənmək mümkündür. Şəhər böyüdükcə, köç aldıqca əski peşələrlə yanaşı, yeniləri də ortaya çıxır. Peşə folklorunun təhlili göstərir ki, bu sahə yalnız şifahi yaradıcılıqla məhdudlaşmır, həm də aşağıdakı aspektləri özündə birləşdirir:

- Peşə qruplarının sosial təbəqələşməsini əks etdirən iyerarxik struktur
- Ənənəvi biliklərin nəsildən-nəslə ötürülmə mexanizmi kimi didaktik funksiya
- Peşə mühitində yaranan xüsusi leksika və kommunikasiya modelləri

Şəhərləşmə prosesi peşə folkloruna ikiqat təsir göstərir: bir tərəfdən ayyaqabı ustaları, saatsazlar kimi köhnə peşələrin ənənələrini transformasiyaya uğradır, digər tərəfdən isə proqramçılar, rəqəmsal marketoloqlar, kompyuter mühəndisləri, polis işçiləri, media əməkdaşları kimi bəziləri yeni, bəziləri köhnə peşə

qruplarının folklorunun formalaşmasına şərait yaradır. XXI yüzilin rəqəmsallaşma startegiyası internet üzərində proqram istehsalçıları və təminatçıları kimi müasir peşələr də folklor mədəniyyəti yaradan qruplar arasındadır. Yeni peşələrdə sosial medianın dilinin və biznes mədəniyyətinin folklorik nümunələr yaratması günün ən son yeniliklərindir.

Peşə dili, peşə jarqonu, peşə tarixi kimi mövzular peşə folklorunu disiplinlər arası bir alana çevirir. Ayaqqabı ustaları, saatsazlar, həkimlər, mühəndislər, müəllimlər folklor disiplini ilə bərabər digər elm sahələri tərəfindən də öyrənilir. Peşə tarix, etimologiya, etnoqrafiya, psixologiya, dilçilik və b. sahələrin də tədqiqat obyektinə çevrilir. Digər tərəfdən, peşə folklorunun öyrənilməsi, sosial birliyin möhkəmlənməsinin və peşə sahəsindəki biliklərin nəsildən-nəslə ötürülməsinin də motivasyonu olur.

Müasir dövrdə peşə folklorunun ən diqqətçəkən xüsusiyyətlərindən biri də ənənəvi ifadə vasitələrinin (məsələn, lətifələrin) sosial mediada yeni formatlarda təzahür etməsidir. Peşə folklorunun öyrənilməsində qarşılaşılan əsas çətinlik onun sistemli şəkildə sənədləşdirilməməsidir. Şəhər folklorunun ciddi problemlərindən biri peşələrlə bağlı söylənən atalar sözlərinin, deyimlərin, bərəkət və bolluqla bağlı ritualların və daha geniş yayılan lətifələrin hələ də sistemli şəkildə öyrənilməməsidir. Peşə lətifələri, sadəcə gülmək üçün söylənmir, eyni zamanda o peşənin özəlliklərini digər peşə nümayəndələrinə anlatmaq məqsədi də daşıyır. Bu bilgiləndirmə bir çox halda gülüşlə, əyləndirməklə həyata keçirilir. Peşə lətifələrinin söylənməsi iş yerindəki gərginliyi azaltmaq, bir az da olsa, yorğunluğu ortadan qaldırmaq məqsədi güdür. Ümumilikdə çətinlik aşağıdakı sahələrdə özünü büruzə verir:

- ✓ Peşə lətifələrinin psixoloji təsir mexanizmləri
- ✓ Peşə jarqonunun leksik-semantik xüsusiyyətləri
- ✓ İş mühitində ritual davranışların sosial funksiyaları

Robert McCarl öz məqaləsində peşə folklorunun inkişafını Amerika tarixi kontekstində araşdırır. Onun tədqiqatlarına görə, bu folklor növü Amerikanın mədəni mühitində formalaşaraq kovboylar, mədənçilər və taxtaçılar kimi peşə qruplarının iş mahnıları, jarqonları və təcrübələri vasitəsilə özünü göstərmişdir. Şəhərləşmə prosesi ilə folklorşünasların diqqəti kənd peşələrindən dəyirman və fabrik işçilərinin mədəniyyətinə yönəlmiş, beləcə peşə folklorşünaslığı daha geniş tədqiqat sahəsinə çevrilmişdir. Müasir dövrdə peşə folklorşünaslığı təkcə şifahi ənənələr və qeyri-rəsmi peşə bilikləri ilə məhdudlaşmır, həm də peşə qruplarının sosial dəyərlərini, iş ənənələrini və mədəni identikliyini öyrənir. Bu sahə peşəkar folklor kimi tanınır və texnikalar, şifahi ifadələr, iş mədəniyyəti kimi elementləri əhatə edir. (McCarl, 2021: 621)

Peşə folkloru və lətifələrinin təhlili sosiologiya, antropologiya, mədəniyyətşünaslıq və dilçilik metodlarını birləşdirən çoxşaxəli yanaşma tələb edir. Bu folklor növü:

1. Peşə qruplarının daxili dinamikasını (şəxsiyyətlərarası münasibətlər, iyerarxiya)

2. Mədəni stereotipləri və peşəvi dəyərləri
3. Kollektiv yaddaşın şifahi/yazılı ötürülmə mexanizmlərini əks etdirir. Peşə folklorunun ifadə formalarına lətifələr, zarafatlar, dedi-qodular, atalar sözləri, tarixi hekayələr, peşə pirlərinə aid mənkıbələr, iş mahnıları və peşəyə xas rituallar və digər xüsusiyyətlər daxildir.

Peşə folklorunda maddi və mənəvi simvollar mühüm yer tutur. Məsələn:

1. Kənd mədəniyyətində biçin ayinləri, bolluq duaları önəmlidir
2. Şəhər mühitində peşə folkloru klişeləşmiş ritual simvollarla və ya klişeləşmiş dualarla zəngin olub buraya uğur simvolları (siftah əməliyyatları, iş yerinin ilk açılması zamanı keçirilən mərasim, bərəkət ritualları) daxildir.

Ənənəvi peşə təlimi isə usta-şagird münasibəti əsasında həyata keçir. Bu proses təkcə peşə bacarıqlarının deyil, həm də mədəni dəyərlərin və sosial normaların nəsildən-nəslə ötürülməsini təmin edir. Usta-şagird münasibətləri ilə bağlı yaranan folklor nümunələri (məsələn, sənətkar lətifələri) peşə folklorunun vacib tədqiqat obyektidir. Buradan da peşə folklorunun, şəhər və kənd mədəniyyətinin dinamik qarşılıqlı təsirini, həmçinin peşə qruplarının kollektiv mənliyini öyrənmək üçün vaz keçilməz mənbə olduğu aydın olur. Onun interdisiplinar xarakteri bu sahənin gələcək tədqiqatlar üçün geniş imkanlar yaratır.

Peşə folklorunun dinamik alt növü olan lətifələr, təkcə əyləncə vasitəsi kimi yox, həm də mürəkkəb sosial funksiyalar daşıyan mədəni fenomen kimi qiymətləndirilməlidir. Peşə lətifələri vasitəsilə hər bir peşə qrupu özünə xas stereotipləri (məsələn, həkimlərin oxunmaz əlyazması, mühəndislərin həddindən artıq rasional davranışı) ictimai diskursa çevirir. Eyni peşə üzvləri arasında bu lətifələr kollektiv aidiyyət hissini gücləndirir, digər peşələrlə müqayisədə isə simvolik üstünlük ifadəsinə çevrilir. Yüksək stresli iş mühitlərində (xəstəxanalar, polis idarələri, təhlükəsizlik şirkətləri) lətifələr psixoloji təzyiqin azaldılmasında təbii terapiya funksiyası daşıyır. Məsələn, həkimlər arasında yayılan "ideal xəstə - ölü xəstədir" kimi qara yumor nümunələri, peşəvi dəhşətlə başa çıxmaq üçün müdafiə mexanizmidir.

Usta-şagird münasibətlərində lətifələr vasitəsilə peşənin görünməyən qaydaları öyrədilir (məsələn, "müştəri həmişə haqlıdır" klişesini tənqid edən satıcı lətifələri). Yeni işçilər üçün peşəvi davranış standartlarının qeyri-formal şəkildə ötürülmə kanalıdır. Məsələn, "Niyə proqramçılar şüşə qapıları sevir? - Çünki onlar üçün hər şey 'açıq-aşkar' olmalıdır!"

Bu məqalə şəhər mühitində peşə folklorunun transformasiyasını və onun müasir cəmiyyətdəki funksiyalarını hərtərəfli təhlil etməyi hədəfləyir. Araşdırma üçün əsas metodoloji baza kimi sahə araşdırmaları, şifahi tarix üsulları və müqayisəli təhlildən istifadə olunacaqdır.

1. Peşə folkloru və peşə lətifələrinin özünəməxsusluğu və araşdırma metodları

Peşə folkloru və peşə lətifələri, insanların iş həyatında qarşılaşdıqları çətinlikləri, sosial münasibətləri və peşəvi stereotipləri yumoristik formada ifadə et-

dikləri mürəkkəb mədəni fenomenlərdir. Bu lətifələr təkcə əyləncə vasitəsi deyil, həm də peşə qruplarının kollektiv psixologiyasını, dəyərlər sistemini və sosial dinamikasını əks etdirən mühüm kommunikasiya vasitəsidir. Peşə ilə bağlı lətifələr ümumilikdə sözü gedən peşənin xüsusiyyətlərini, gündəlik iş prosesini, komanda daxilində və ya müştərilər, rəhbərlər və həmkarlarla münasibətləri gündəmə gətirən və bunları ələ salmaqla gülüş hədəfinə çevirən qısa, istehzalı və ya satirik hekayələrdir (Martin, 1993: 89-104; Attard, 2012: 161-175; Schweikart, 2020: 596-601.) Peşə lətifələri özünəməxsus xüsusiyyətləri ilə seçilir ki, bunlar aşağıdakılardır:

1. **Peşə spesifikliyi**. Bütün peşə lətifələri konkret bir peşə və ya sənətlə bağlıdır və həmin peşənin xüsusiyyətlərindən, iş proseslərindən, gündəlik problemlərindən və stereotiplərindən bəhs edir.
2. **Hədəf auditoriyası**. Peşə lətifələri ilk növbədə müəyyən peşə nümayəndələrinə yönəlmişdir və onların təcrübələri əsasında formalaşır. Ancaq bu lətifələr eyni zamanda digər peşə qrupları və ümumi auditoriya arasında da yayılaraq peşə mədəniyyətini tanıdır.
3. **Psixoloji təsir və stress azaldılması**. Peşə lətifələri iş yerindəki gərginliyi yumşaltmaq, monotonluğu pozmaq və komik vasitə ilə emosional rahatlıq yaratmaq üçün istifadə olunur.
4. **Absurd və satirik vəziyyətlər**. Bu lətifələr peşə həyatında rast gəlinən qəribə, məntiqsiz və ya gülməli situasiyaları ifadə edir.
5. **Dialoq əsaslı struktur.** Peşə lətifələri çox vaxt qısa dialoqlar şəklində qurulur və bu, onları daha dinamik və yaddaqalan edir.
6. **Stereotiplərin tənqidi və təsdiqi**. Peşə lətifələri müəyyən peşələrə aid geniş yayılmış stereotipləri (məsələn, həkimlərin oxunmaz yazısı, mühəndislərin həddindən artıq analitikliyi) ya tənqid edir, ya da gülüş vasitəsilə normallaşdırır.
7. **Yaradıcılıq və kreativlik**. Bu lətifələr yumoristik dil, gözlənilməz sonluqlar və metaforik ifadələrlə zəngindir.

Peşə folklorunun öyrənilməsi – xüsusilə də ənənəvi sənətkarlıqdan (dulusçuluq, xalçaçılıq, misgərlik) müasir intelektual peşələrə (həkimlər, mühəndislər, proqramçılar, yazıçılar) və yeni şəhər peşələrinə qədər geniş spektrdə lətifələrin təhlili üçün aşağıdakı elmi metodlardan sistematik şəkildə istifadə etmək vacibdir:

1. **Müşahidə metodu (etnografik saha araşdırması).** Peşə folklorunun təbii kontekstdə qeydə alınması və sosial dinamikasının anlaşılması. İş yerlərində (emalatxanalar, ofislər, xəstəxanalar) lətifələrin spontan şəkildə yaranması və yayılması proseslərinin qeydiyyatı.

2. Məsələn, aşpazların kulinar səhvlərlə bağlı zarafatlarının xidmət zamanı necə paylaşılması. Tədqiqatçının peşə qrupuna inteqrasiyası (məsələn, proqramçı komandası ilə birgə işləmək) və "daxili zarafatların" mənbəyini müəyyən etmək. Real zamanlı sosial qarşılıqlı əlaqənin qeydə alınması, lətifələrin emosional və situativ kontekstinin anlaşılması. Belə bir ünsiyyət tədiqatçıya başqa qaynaqlarda rast gəlməyəcəyi folklor materiallarını müəyyən etməyə imkan verir. İnsanların

zarafatlaşarkən özlərini rahat hiss etmələri üçün tədqiqatçının güvən atmosferi yaratmağı vacibdir.

3. **Müsahibə texnikaları.** Peşə nümayəndələrinin lətifələrə yüklədiyi məna və funksiyaların aşkarlanması. Eyni peşədən olan 5-7 nəfərlə qrup diskussiyası (məsələn, müəllimlər arasında "ideal şagird" stereotiplərinin təhlili). Lətifələrin sosial funksiyaları (qrup birliyi, stress azaldılması, tənqid), terminologiya və jarqonun rolu (məsələn, həkim lətifələrində tibbi terminlərin satirik istifadəsi). Yarı strukturlaşdırılmış müsahibələr vacib məqamları kənara qoymadan söhbəti çevik şəkildə istiqamətləndirməyə kömək edəcək, eyni zamanda iştirakçılara bir sıra mühüm mövzular üzrə öz fikirlərini bildirməyə imkan verəcəkdir. Qrup müsahibələri ilə də kollektiv təcrübə mübadiləsi "daxili zarafatlar" və folklor mövzuları haqqında ümumi anlayışı ortaya çıxacaqdır.

4. **Məzmun və diskurs təhlili.** Folklor nümunələrindəki təkrarlanan mövzular, simvollar və mədəni kodların sistemləşdirilməsi. Müxtəlif peşələr üzrə lətifələrdə ən çox rast gəlinən mövzuların statistikası (məsələn, mühəndislərdə "məntiq və real həyat" kontrastı). Məsələn, polis lətifələrində "qanunun hərfi təfsiri" motivləri. Dulusçuların "torpaqla dialoqu" kimi ənənəvi sənətkarlıq lətifələrində təbiətə münasibət. Məzmun təhlilində bir vacib məsələ də hansı söz, termin, üslub və ya jarqonun peşəkar zarafatlara xas olduğunu təhlil etməkdir. Bu isə dilin peşənin daxili dünyasının daha açıq şəkildə anlamağa kömək edəcəkdir.

5. **Tarixi və sosial-mədəni kontekstin təhlili.** Peşə lətifələri dinamik mədəni artefaktlardır ki, tarixi dəyişikliklər, texnoloji inkişaf və sosial transformasiyalarla paralel olaraq təkamül edir. Sovet dövründə "fəhlə qəhrəmanlığı" lətifələri indi "startup mədəniyyəti" və "işdən çıxarılma" temaları ilə əvəz olunub. Arxiv materialları (qəzet lətifələri, sovet dövrü qəlyanaltı kitabları) ilə müasir sosial media meme-lərinin müqayisəli təhlili. "Nəsil fərqi" yanaşması: müxtəlif yaş qruplarından peşəkarlarla lətifələrin transformasiyası haqqında müsahibələr. Peşə lətifələri digər folklor formaları kimi, sosial, siyasi və iqtisadi vəziyyətlərdə baş verən dəyişiklikləri əks etdirə bilir. Məsələn, doktor lətifələrində tibbin inkişafı ilə həkimlər haqqında zarafatlar, yeni texnologiyaların yaranması ilə proqramçılar haqqında zarafatlar və ya qanunvericilikdə və ictimai rəydə dəyişikliklərə cavab olaraq polis haqqında lətifələrin necə dəyişdiyi öyrənilir.

6. **Sosial funksiyaların sistematik təsnifatı.** Qrupların sosial quruluşunda peşə folkloru və lətifələr önəmli rol oynamaqdadır. Peşə lətifələri qrup dinamikasında bir çox funksiyanı yerinə yetirir. İş yerlərində lətifələrdən sonra qrup reaksiyalarının videoqeydə alınması. Lətifələrdə kimin "gülünc obyekt"ə çevrildiyinin statistikası (məsələn, 73% həkim lətifələrində "xəstə" əsas hədəfdir). Peşə folkoru və lətifələrindən işlə bağlı çətinliklər, stress və mənfi emosiyaların öhdəsindən da-

ha rahat gəlməyin yolları öyrənilir. Bundan başqa bəzi durumlarda lətifələr qrup içində sosial iyerarxiyanı dəstəkləyir, bu da öz növbəsində yüksək mövqe tutmayan işçiləri ələ salmaqla və ya onları qrupun yaşlı üzvlərinə qarşı qoymaqla mənfi rol da oynamaqdadır.

7. **Peşə lətifələrinin tematik təsnifatı.** Mühəndis, proqramçı, doktor lətifələri tematik təsnifatda bəzi özəllikləri ilə seçilir. Bu isə peşənin stereotipləri və stereotip obrazları müəyyən bir peşədə çalışan işçiləri necə qəbul etmələri, peşə nümayəndələrinin hansı stereotiplər üzərinə qarşılaşdıqları haqqında zarafatlardır. Peşə lətifələrini 5 əsas tematik qrupa bölmək olar: a) Peşənin çətinlikləri, işin fiziki/emosional çətinlikləri. b) Peşə stereotipləri və cəmiyyətdə yayılmış qəribə təsəvvürlər. c) İşçi-müştəri münasibətləri, yəni xidmət sektorundakı absurd vəziyyətlər. d) Texnoloji/mədəni uyğunsuzluq və ya ənənə-müasirlik ziddiyyətləri. e) İş yeri absurdluqları, bürokratik/qeyri-məntiqi qaydalar.

Təbii ki, bu durumda araşdırmanın üç istiqaməti birləşdirən 3D Folklor Modelindən[1] yararlanmaq mümkündür:

1. Dərinlik (Tarixi kontekst)
2. Dinamika (Sosial funksiyalar)
3. Diversifikasiya (Tematik müxtəliflik)

2. Frame (Çərçivə) Nəzəriyyəsi Baxımından Peşə Folkloru (Zarafatlar və Lətifələr)

2.1. Çərçivə nəzəriyyəsinin ortaya çıxışı

Peşə lətifələrinin gülüş doğuran işarələrini frame nəzəriyyəsi ilə açıqlamaq yumorun idrak yönünü həmçinin absurd və ironik situasiyaları əks etdirdiyini sübut edir. Geniş mənada peşə mədəniyyəti peşələrin özəllikləri ilə bağlı söylənənlərin toplamıdır ki, başqalarının necə yaşadıqlarını, necə qazandıqlarını, sənətlərini necə öyrətdiklərini, rituallarını, hər peşəyə aid dil özəlliklərini və s. yansıdır. Lətifələr də peşələrin praktikalarını, vəziyyətlərini, usta-şagird münasibətini, peşəyə

[1] 3D folklor modeli, folklor elementlərinin (məsələn, milli geyimlər, rəqs hərəkətləri, musiqi alətləri və s.) üçölçülü rəqəmsal təsviridir. Bu modellər, folklorun vizual olaraq təqdim edilməsi, qorunması və öyrənilməsi üçün istifadə olunur. 3D folklor modellərinin bir neçə məqsədi ola bilər: 1) Mədəni irsin qorunması: 3D modellər, zamanla yox ola biləcək və ya zədələnə biləcək folklor elementlərinin rəqəmsal olaraq saxlanılmasına imkan verir. 2) Təhsil: 3D modellər, folklorun daha interaktiv və əyləncəli şəkildə öyrənilməsinə kömək edə bilər. Məsələn, tələbələr virtual reallıq (VR) və ya artırılmış reallıq (AR) texnologiyaları vasitəsilə 3D modelləri araşdıra bilərlər. 3) Turizm və təqdimat: 3D modellər, folklorun turistlərə və geniş ictimaiyyətə təqdim edilməsi üçün istifadə edilə bilər. Məsələn, muzeylər və ya sərgilər 3D modelləri nümayiş etdirə bilərlər. 4) Əyləncə və oyunlar: 3D modellər, video oyunlarında və digər əyləncə məhsullarında folklor elementlərinin istifadəsinə imkan verir. 3D folklor modelləri, folklorun rəqəmsal dövrdə qorunması və təqdim edilməsi üçün vacib bir vasitədir. Bu modellər, folklorun gələcək nəsillərə ötürülməsinə və onun daha geniş auditoriyaya çatdırılmasına kömək edə bilər.

aid stereotipləri, geri qalmış ənənələri gülüş hədəfinə çevirməklə peşə folklorunu daha yaxşı anlamağa xidmət edir. Peşə lətifələrinin funksiyasını, strukturunu, münasibətlər sistemini dil oyunlarını öyrənməyin doğru yolu frame nəzəriyyəsi ilə mümkündür, çünki frame nəzəriyyəsi insanların dünyanı anlaması üçün istifadə etdiyi mental çərçivələri ifadə edir.

Çərçivə semantikasını əks etdirən nitq fəaliyyətində lətifəni danışan niyyətini həyata keçirmək üçün subyektlər vasitəsi ilə elmi bilikləri obyektiv şəkildə təqdim edir. Atalar sözləri və məsəllərin frame tədqiqi dünyanın mənzərəsinin daha aydın təqdim edilməsinə və müasir dilçilikdə və folklorşünaslıqda cərəyanların yeni aspektdə inkişafına, genişlənməsinə, biliklərinin artmasına şərait yaradır. Çünki dil sosial gerçəkliyin başlıca göstəricisidir.

Müasir dilçiliyin mərkəzi problemlərindən biri kommunikativ formasiyaların daxili strukturunun, xüsusən də ümumi və xüsusi, köhnə və yeni elementlər arasındakı əlaqəni izah etməkdən ibarətdir. Müasir koqnitiv elmdə bu, məsələn, çərçivələr konsepsiyasının (ssenarilər, koqniotiplər və s.) inkişafında özünü göstərir ki, bu mövqeyə əsaslanaraq, yeni məlumatların yaranması və qavranılması məlum olanın təməlinə söykənməyi nəzərdə tutur. Həm də bütün bunlar kommunikantların koqnitiv strukturlarında mövcuddur. (Минский, 1979; Баранов, 1993; Демьянков, 1995: 239-320)

Frame (çərçivə) anlayışını ilk dəfə sosial elmlərdə 1955-ci ildə Gregory Bateson irəli sürmüşdür. G. Bateson psixoloji çərçivələri metakommunikasiya növü kimi fəaliyyət göstərən "interaktiv mesajlar toplusunun məkan və zamanla sərhədlənməsi" kimi müəyyən etmişdir. (Bateson, 1972: 197)

Frame koqnitiv dilçilikdə konsept nəzəriyyəsi ilə bağlıdır. N. Boldırev və M.Nikitinin fikrincə, çərçivə çoxkomponentli anlayışların bir hissəsidir, stereotipik vəziyyət haqqında məlumatların, biliklərin "paketini" təmsil edir. Çərçivə dedikdə bir növ mürəkkəb anlayış nəzərdə tutulur. (Болдырев, 2004: 36; Никитин, 2004: 61) Konkret şəkildə konsept istənilən obyekti, obrazı əks etdirir, onu konseptuallaşdırır. Bütün vəziyyətləri əks etdirən və təsnif edən çərçivənin isə kollektiv xarakter daşıdığı üçün strukturu daha spesifikdir və konsepsiya framelə müqayisədə daha "sadə" görünür. Həm də idrak etmə imkanları dil vasitələri ilə məhdudlaşır, ona görə də bu baxımdan süjetlər və paremiyalar (bunlar idrak elmində əsasən çərçivə, ssenari və s. kimi strukturlara uyğundur) idrak funksiyasını yerinə yetirir.

Çərçivə, xəbərlər və hekayə məzmunu haqqında məlum kontekstdə düşünmək təcrübəsini təsvir edir. Framein tərtibi və tətbiqi gündəmin qurulması ənənəsi ilə bağlıdır, ancaq konkret mövzuya deyil, mövcud məsələlərin mahiyyətinə diqqət yetirməklə tədqiqat sahəsini genişləndirir. Çərçivə nəzəriyyəsinin əsası medianın diqqətini konkret hadisələrə yönəltməsi və sonra onları məna sahəsinə yerləşdirməsidir. (URL-1)

Peşə folklorunun və xüsusən də lətifələrin çərçivə nəzəriyyəsi baxımından tədqiqində istifadə ediləcək frame termini ingiliscə "struktur, sistem, çərçivə" və

"qurmaq, yaratmaq" mənalarına gəlməkdədir. Çərçivə (knowledge engineering) – sistem analizində, süni intellektdə, bilik mühəndisliyində: obyektin atributlar və onların dəyərləri şəklində təsvirini ehtiva edən strukturdur. Təbii ki, Teun A. van Dijk koqnitiv və frame nəzəriyyələrini zehinsəl modellər olaraq dəyərləndirməklə araşdırmanın yönünü daha da genişlətmiş və çərçivəni dünya haqqında biliyi təmsil etmək vasitəsi adlandırmışdır. (URL-2)

Frame (çərçivə) koqnitiv dilçiliyin əsas anlayışlarından biridir, onun məqsədi dilin idrak funksiyasını müəyyən etməkdir. Koqnitiv dilçilikdə bu terminə iki yanaşma mövcuddur: "çərçivə – biliyin strukturu kimi və biliyi təmsil edən struktur kimi." (Болдырев, 2004: 29; Никитин, 2004: 62) Bu iki yanaşma bir-biri ilə əlaqəlidir. Beləliklə, termin çərçivəsinin tərifi əsasında müasir insanın idrakı quruluşu öyrənilir. Bir insanın həyatın müxtəlif sahələri haqqında əldə etdiyi bilikləri təsnif etmək üçün frame nəzəriyyəsi ən ideal araşdırma aparatıdır. Məqsəd bu tip biliklərin insan təfəkküründə necə təmsil olunduğu haqqında məlumat əldə etməkdir. Ümumiyyətlə, çərçivə insan həyatının və cəmiyyətin müxtəlif sferalarına aid bilik strukturudur.

Əslində, frame nəzəriyyəsi təklif edir ki, bir şeyin tamaşaçılara necə təqdim edilməsi (ki bu çərçivə adlanır), insanların bu məlumatı necə emal etmək barədə seçimlərinə təsir edir. Çərçivələr mesajın mənasını təşkil etmək və ya strukturlaşdırmaq üçün işləyən abstraksiyalardır. Framedən ən çox xəbərlərin və ya medianın çatdırdıqları informasiyaya yer verilərkən istifadə edilir. Onların xəbərlərin auditoriya tərəfindən qavranılmasına təsir göstərdiyi güman edilir, beləliklə, o, ikinci səviyyəli gündəmin müəyyənləşdirilməsi forması kimi təfsir oluna bilər – onlar nəinki tamaşaçılara nə barədə düşünməli olduqlarını bildirirlər (gündəm qurma nəzəriyyəsi), həm də bu məsələ haqqında necə düşünmək lazımdır (ikinci səviyyəli gündəmin qurulması, çərçivə nəzəriyyəsi).

Çərçivə nəzəriyyəsinin əsas müddəası ondan ibarətdir ki, bir məsələyə müxtəlif perspektivlərdən baxıla və bir çox dəyər və ya mülahizələrə təsir göstərən kimi təfsir oluna bilər. Çərçivənin qurulması insanların bir məsələnin xüsusi konseptualizasiyasını inkişaf etdirmələri və ya bir məsələ haqqında düşüncələrini yenidən istiqamətləndirmələri prosesinə aiddir. Çərçivənin daha dəqiq tərifi fərdin münasibətinin adi gözlənti dəyəri modeli ilə başlayır. Bir obyektə münasibət, bu baxımdan, bu obyekt haqqında bir sıra qiymətləndirici inancların çəkili cəmidir. (Chong and Druckman, 2007: 103-104)

Frame nəzəriyyəsinin bir çox elmi postulatlarının ilk dəfə E. Goffmanın 1974-cü ildə (təkrar nəşr 1986) yazdığı "Frame Analysis" (Çerçeve Analizi) adlı kitabında qoyduğu iddia edilir. O, insanların öz dünyalarında baş verənləri əsas çərçivələri ilə şərh etdiklərini irəli sürdü. Bu çərçivə istifadəçi tərəfindən qəbul edildiyi üçün əsas hesab olunur. Onun bir çərçivə kimi faydalı olması digər çərçivələrdən asılı deyil. O, bu nəzəriyyənin fəlsəfi, sosioloji və linqvistik tərəfləri haqqında təməl konsepsiyanın müəllifidir. E. Goffmana görə cəmiyyətdə gündəlik hə-

yatda ilkin çərçivələrin iki geniş sinfi: təbii və sosial arasında aydın fərq hiss olunur. (Goffman, 1986: 21-22)

1) Təbii çərçivələr istiqamətsiz, oriyentasiyasız, cansız, idarə olunmayan, "sırf fiziki" kimi görünən hadisələri müəyyən edir. Bu cür idarə olunmayan hadisələr başdan-ayağa "təbii" təyinedici səbəbləri olduğu başa düşülən hadisələrdir. Burada heç bir iradəli insanın səbəbli və ya qəsdən müdaxilə etmək, heç bir aktyorun davamlı olaraq nəticəyə rəhbərlik etmək kimi səlahiyyəti yoxdur. Bu hadisələrlə bağlı uğur və ya uğursuzluq təsəvvür edilə bilməz; mənfi və ya müsbət sanksiyalar nəzərdə tutulmur. Tam determinizm və müəyyənlik üstünlük təşkil edir. Belə bir sxemdə qəbul edilən hadisələrin reduktiv şəkildə daha "fundamental" çərçivədə qavranılanlara çevrilə biləcəyi və hamı tərəfindən paylaşılan enerjinin saxlanması və ya tək, geridönməz zaman anlayışı kimi bəzi müddəaların olacağına dair bəzi anlayışlar var.

2) Digər tərəfdən, sosial çərçivələr bir zəkanın, canlı insanın iradəsini, məqsədini və nəzarət səylərini özündə birləşdirən hadisələr üçün əsas anlayışı təmin edir ki, burada ən başlıcası insandır. Belə bir agentlik barışmazdan başqa bir şey deyil; onu təhrik etmək, şişirtmək, təhqir etmək və hədələmək olar. Onun etdiklərini "rəhbər olunan işlər" kimi təsvir etmək olar. Bunlar da insanları "standartlara" tabe edir, onun hərəkətinin dürüstlüyü, səmərəliliyi, qənaətcilliyi, təhlükəsizliyi, zərifliyi, nəzakəti, xoş zövqü və s. təyin edilir.

G. Fairhurst və R. Sarr frame nəzəriyyəsinin çərçivə texnikasını daha geniş tutaraq aşağıdakı bölgünü təqdim etmişlərdir:

1. Metafora: Konseptual fikri başqa bir şeylə müqayisə edərək çərçivəyə salmaq.
2. Hekayələr (miflər, əfsanələr): Bir mövzunu canlı və yaddaqalan şəkildə povest vasitəsilə çərçivəyə salmaq.
3. Ənənə (rituallar, mərasimlər): Dünyəvi həyatda əhəmiyyət kəsb edən, artefaktlarla sıx bağlı olan mədəni adətlər.
3. Sloqan, jarqon, cəlbedici söz: Bir obyekti daha yaddaqalan və əlaqəli etmək üçün cəlbedici bir ifadə ilə çərçivəyə salmaq.
4. Artefakt: Daxili simvolik dəyəri olan obyektlər – özündən daha çox məna daşıyan vizual/mədəni hadisə.
5. Kontrast: Bir obyekti nə olmadığı baxımından təsvir etmək.
6. Spin (nəyinsə bir hissəsi): anlayışı dərhal görünməyən dəyər mühakiməsini (müsbət və ya mənfi) çatdıracaq şəkildə təqdim etmək. (Fairhurst and Sarr, 1996: 101)

Bu bölgü peşə folklorunu və lətifələrini araşdırmaqda önəmli aşamanı göstərmək baxımından qiymətlidir.

2.2. Çərçivə nəzəriyyəsi baxımından peşə folklorunun öyrənilməsi

Peşə folkloru müxtəlif peşə qruplarının mədəni kodlarını, ünsiyyət formalarını və dəyərlərini əks etdirən zəngin bir tədqiqat sahəsidir. Bu sahənin dərindən araşdırılması üçün çərçivə nəzəriyyəsi (frame theory) mühüm analitik vasitə kimi çıxış edir. Çərçivə nəzəriyyəsi, peşə fəaliyyətinin strukturunu və məzmununu mü-

əyyən edən mənalandırma mexanizmlərini, biliklərin ötürülmə və təşkil olunma yollarını sistematik şəkildə izah etməyə imkan verir. Bu yanaşma, peşə qruplarının folklorunu formalaşdıran sosial və mədəni çərçivələri anlamağa, onların ünsiyyət proseslərini və simvolik ifadə vasitələrini təhlil etməyə geniş imkanlar açır:

1. Peşə hekayələrinin quruluşu və funksiyası. Peşə ilə bağlı hekayələr (iş təcrübələri, uğur və uğursuzluq hekayələri, peşəyə daxil olma narrativləri) çərçivə nəzəriyyəsi vasitəsilə təhlil edilə bilər. Bir peşə qrupunun adamlarının anlatdıqları hekayə əslində hər bir qrupun üzvünə öz təcrübələrini başqalarının təcrübələri ilə müqayisə etmək fürsəti saxlayır. (McCarl, 2021: 627) Məsələn, həkimlərin xəstələrlə yaşadıqları təcrübələri necə danışdıqları, müəllimlərin sinifdə qarşılaşdıqları çətinlikləri necə çərçivələşdirdikləri bu nəzəriyyə ilə aydınlaşdırılır. Bu hekayələr peşə qrupunun kollektiv yaddaşını formalaşdırır və yeni üzvlərə peşə normalarını və əxlaqını öyrədir.

2. Peşə zarafatlarının və lətifələrin sosial mənası. Peşə zarafatları və lətifələri təkcə əyləncə vasitəsi deyil, həm də qrup dəyərlərini, gərginlikləri və ya peşə ilə bağlı stereotipləri ifadə edir. Məsələn, polis və ya hərbi personal arasında işlədilən zarafatlar, onların riskli vəziyyətlərlə necə məşğul olduqlarını göstərə bilər. Çərçivə nəzəriyyəsi, bu zarafatların arxasında duran sosial və psixoloji mənaları deşifrə etməyə kömək edir.

3. Peşə ilə bağlı ritualların və adətlərin funksional təhlili. Hər peşə qrupunun özünəməxsus ritualları və adətləri var. Məsələn, həmkarların birgə ifa etdiyi işə başlama mərasimləri, yaxud uğurlu bir layihənin bitirilməsi münasibətilə qeyd edilən kiçik bayramlar peşəvi kimliyi möhkəmləndirir. Çərçivə nəzəriyyəsi, bu ritualların qrup dinamikasında necə rol oynadığını və peşəvi həyatın təşkilində hansı funksiyaları yerinə yetirdiyini müəyyən etməyə imkan verir.

4. Peşə terminologiyası, peşə dilinin kommunikativ rolü. Hər peşənin özünəməxsus xüsusi sözləri və danışıq ləhcəsi var. Bu terminologiya təkcə texniki ünsiyyəti asanlaşdırmır, həm də peşə qrupuna aid olma hissini gücləndirir. Məsələn, İT[1] mütəxəssislərinin işlətdiyi jargon, hüquqşünasların istifadə etdiyi xüsusi ifadələr və ya həkimlərin qeyri-rəsmi tibbi terminləri peşəvi kimliyin formalaşmasında mühüm rol oynayır. Çərçivə nəzəriyyəsi, bu dil vasitələrinin necə sosial məna daşıdığını və qrup üzvləri arasında həmrəylik yaratdığını izah edir.

5. Peşə dəyərlərinin və inancların ötürülmə mexanizmləri. Peşə folkloru vasitəsilə qrup dəyərləri (peşəkar etika, işə sədaqət, peşəvi qürur) nəsildən-

[1] İT- informasiya texnologiyaları deməkdir. İT termini fərdi kompüterlərin, dövlət qurumlarının və ya böyük özəl şirkətlərin məlumatlarını idarə etmək üçün istifadə olunur. Bu informasiya sistemləri bir çox sahələri əhatə edir: kompüter şəbəkələri, sistemlər, fiziki avadanlıq, proqram, səs və video zəng və ya təhlükəsizlik kimi bir çox sahədə işləri asanlaşdırır.

nəslə ötürülür. Məsələn, sənətkar zümrələrində ustad-şagird münasibətləri, hərbi qulluqçuların vəzifə anlayışı və ya müəllimlərin təhsilə dair inamları hekayələr, məsəllər və simvolik əməllərlə formalaşır. Çərçivə nəzəriyyəsi, bu dəyərlərin necə kodlaşdırıldığını və nəyin peşə baxımından "normal" hesab edildiyini müəyyən etməyə kömək edir.

Bir sözlə çərçivə (frame) nəzəriyyəsi, peşə folklorunu təhlil etmək üçün effektiv bir alətdir. Bu yanaşma, peşə qruplarının mədəniyyətini, ünsiyyət qaydalarını və kollektiv şüurunu anlamaqda tədqiqatçılara kömək edir. Peşə hekayələri, zarafatları, ritualları və terminologiyası vasitəsilə qrupların daxili dinamikasını və sosial münasibətlərini araşdırmaq mümkündür. Nəticədə, peşə folklorunun öyrənilməsi təkcə akademik maraq doğurmur, həm də peşə mühitlərinin daha yaxşı idarə edilməsi və sosial uyğunlaşmanın təmin edilməsi baxımından praktik əhəmiyyət kəsb edir.

3. Peşə folklorunun şəhər mədəniyyətindəki yeri

3.1. Ənənəvi peşələr və onların folklor nümunələri (dulusçular, xalçaçılar, misgərlər)

Şəhər mədəniyyətində ənənəvi peşə sənətkarlığı yalnız iqtisadi fəaliyyət deyil, həm də mədəni kodların, simvolların, dəyərlər sisteminin, gündəlik həyat tərzinin və kollektiv yaddaşın daşıyıcıları olmuşdur. Bu peşələr folklorda bəlli materialla insanın mistik əlaqəsini, peşə fəlsəfəsini və sosial statusunu əks etdirir.

Azərbaycan xalqının zəngin mədəni irsində ənənəvi sənətkarlıq növləri xüsusi yer tutur. Dulusçuluq, xalçaçılıq, misgərlik kimi qədim sənətlər həm maddi, həm də mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Bunlardan biri də dulusçuluqdur. Dulusçuluq Azərbaycanda ən qədim sənət növlərindən biridir. Arxeoloji qazıntılar zamanı tapılan gil qablar, saxsı məmulatlar bu sənətin min illər boyu inkişaf etdiyini sübut edir. Azərbaycanın müxtəlif bölgələrində dulusçuluq məktəbləri formalaşmışdır. Bu məktəblər özünəməxsus texnika və üslubları ilə fərqlənir. Dulusçular məişət əşyaları (qablar, küplər, qazanlar), bəzək əşyaları, oyuncaqlar və s. hazırlayırlar. Dulusçuluq sənəti ilə bağlı bir çox folklor nümunələri mövcuddur. Bu nümunələr arasında dulusçuların iş prosesini, sənətə olan sevgisini, eləcə də məişət həyatını əks etdirən mahnılar, bayatılar, atalar sözləri və s. var.

Xalçaçılıq sənəti Azərbaycan qadınlarının incə zövqünü, yaradıcılıq qabiliyyətini və səbrini nümayiş etdirir. Azərbaycanın müxtəlif bölgələrində xalçaçılıq məktəbləri formalaşmışdır. Bu məktəblər özünəməxsus naxışları, rəngləri və toxuma texnikaları ilə fərqlənir. Xalçaçılıq sənəti ilə bağlı bir çox folklor nümunələri mövcuddur. Bu nümunələr arasında xalça toxuyan qadınların duyğularını, xalçaların naxışlarını və mənalarını əks etdirən mahnılar, bayatılar, nağıllar və s. var.

Misgərlik Azərbaycanda qədim və zəngin ənənələrə malik olan sənət növlərindən biridir. Misgər ustalar məişət əşyaları, bəzək əşyaları, silahlar və s. hazırlayırlar. Azərbaycanın müxtəlif bölgələrində misgərlik məktəbləri formalaşmışdır. Bu məktəblər özünəməxsus texnika və üslubları ilə fərqlənir. Misgərlik sənəti ilə

bağlı bir çox folklor nümunələri mövcuddur. Bu nümunələr arasında misgərlərin iş prosesini, sənətə olan sevgisini, eləcə də məişət həyatını əks etdirən mahnılar, bayatılar, atalar sözləri və s. var.

Bu sənətlərin folklor nümunələri Azərbaycan xalqının zəngin mədəni irsini qoruyub saxlamaqda mühüm rol oynayır.

Tacirlərlə, satıcılarla bağlı bazar folkloru da Azərbaycan xalq yaradıcılığında özünəməxsus yer tutur. (Bayat, 2019a: 5-16) Bu sahəyə aid folklor nümunələri ticarət ənənələri, bazar mühiti, satıcıların həyat tərzi və xalqın iqtisadi düşüncə tərzi ilə bağlı zəngin məlumatlar verir. Şəhər bazarları yalnız ticarət mərkəzi deyil, həm də şifahi yaradıcılığın canlı sahəsidir. Burada folklor 3 formada təzahür edir:

1. **Alver dialektikası:** Satıcı: ”Bu ədəd 100 illik antikadır!” Alıcı: ”Bəs niyə üzərində 'Made in China' yazılıb?” Satıcı: ”Həmin dövrdə Çinlilər də bizdən alardı!”

2. **Qiymət folkloru:** “Bazar ertəsi endirim niyə 90% deyil? Çünki 100% etsək, 'pul qaytarmaq' lazım olar!”

3. **Peşəkar stereotiplər:** “Ən yaxşı satıcı kimdir? Arvadını bazara göndərib, özü evdə oturan!”

Satıcılarla və bazarla bağlı nümunələrə folklorun bütün janrlarında rast gəlmək mümkündür:

➢ **Atalar sözləri və məsəllər:** “Alverin yalanı, bazarın talanı”, “Yüz ölç, bir biç”, “Malını tərifləyən, müştərisini ələ salar” kimi atalar sözləri və məsəllər ticarət etikası, bazar qaydaları və müştəri-satıcı münasibətləri haqqında dəyərli biliklər verir.

➢ **Aşıq yaradıcılığı:** Aşıq şeirində və dastanlarda tacirlərin səyahətləri, ticarət macəralarını və bazar həyatını təsviri çox geniş yayılmışdır. Məsələn, “Koroğlu” dastanında tacirlərin karvanları, ticarət yolları və şəhərdıki bazarlar haqqında maraqlı məlumatlar var. Eşq dastanlarında qəhərəmanın şəhər bazarındakı macəraları da mövzu ilə bağlı geniş məlumat verir.

➢ **Nağıllar və lətifələr:** Nağıllarda və lətifələrdə hiyləgər tacirlərin, bacarıqlı müştərilərin və bazar mühitinin komik və satirik təsvirləri verilir. Bu nümunələr xalqın ticarətə, tacirlərə və satıcılara olan münasibətini əks etdirir.

➢ **Bazar mahnıları və qafiyəli sözlər:** Bazarlarda satıcılar öz mallarını tərifləmək üçün müxtəlif mahnılar və qafiyəli, səcli sözlərdən istifadə edirlər. Bu sözlər bazar folkloru nümunələri kimi dəyərlidir.

Burada vurğulanması lazım olan əsas məsələ bazar folklorunun əhəmiyyətidir. Belə ki:

✓ Bazar folkloru Azərbaycan xalqının iqtisadi düşüncə tərzini, ticarət ənənələrini və bazar mədəniyyətini öyrənmək üçün mühüm mənbədir.

✓ Bu folklor nümunələri həm də xalqın əyləncə və istirahət mədəniyyətinin bir hissəsidir.

✓ Bazar folkloru gələcək nəsillərə ötürülərək, milli mədəni irsimizin qorunmasına xidmət edir.

Bazarların ən böyük özəlliyi sosial-iqtisadi münasibətlərdə satıcı (bazarlayıcı) ilə alıcı (müştəri) arasındakı normaların düzənlənməsinə xidmət etməsidir. (Bayat, 2019: 11-17)

3.2. Şəhər həyatının peşə folkloruna təsiri

Şəhər həyatının peşə folkloruna təsiri, folklorun dinamik təbiətini və şəhər mədəniyyətinin özünü yeniləmə qabiliyyətini nümayiş etdirir. Bu təsir üç əsas aspektdə özünü göstərir:

a) Məkanın transformasiyası: Şəhərlərin böyüməsi və inkişafı, yeni peşələrin yaranmasına və ənənəvi peşələrin dəyişməsinə səbəb olur. Məsələn, sənaye inqilabı ilə fabrik işçiləri, mühəndislər və digər yeni peşə qrupları yaranmışdır. Bu yeni peşələr özləri ilə birlikdə yeni folklor nümunələri gətirir. Fabrik işçilərinin mahnıları, mühəndislərin zarafatları və digər peşə folkloru nümunələri şəhər mədəniyyətinin bir hissəsinə çevrilir. Şəhər məkanının dəyişməsi, ənənəvi peşə folklorunun da dəyişməsinə səbəb olur. Məsələn, at arabası sürücülərinin folkloru, avtomobil sürücülərinin folkloruna çevrilir.

b) Sosial strukturun evolyusiyası: Şəhərlərdə sosial təbəqələşmənin artması, müxtəlif peşə qrupları arasında fərqli folklor nümunələrinin yaranmasına səbəb olur. Məsələn, fəhlələrin folkloru ilə ziyalıların folkloru arasında fərqlər mövcuddur. Bu fərqlər, hər bir qrupun həyat tərzi, dəyərləri və dünyagörüşü ilə əlaqədardır. Şəhərlərdə miqrasiya prosesləri, müxtəlif mədəniyyətlərin qarışmasına və yeni folklor nümunələrinin yaranmasına səbəb olur. Məsələn, müxtəlif regionlardan gələn işçilərin öz folklorlarını şəhərə gətirməsi, yeni peşə folklorunun zənginləşməsinə səbəb olur.

c) Texnoloji innovasiyaların təsiri: Texnoloji inkişaf, yeni peşələrin yaranmasına və ənənəvi peşələrin dəyişməsinə səbəb olur. Məsələn, kompüter texnologiyalarının inkişafı ilə proqramçılar, İT mütəxəssisləri, dizaynerlər və digər yeni peşə qrupları yaranmışdır. Bu yeni peşələr özləri ilə birlikdə yeni folklor nümunələri gətirir. Proqramçıların zarafatları, dizaynerlərin mədəniyyəti və digər peşə folkloru nümunələri şəhər mədəniyyətinin bir hissəsinə çevrilir. Texnoloji innovasiyalar, folklorun yayılma və qorunma üsullarına da təsir edir. İnternet və sosial media, folklor nümunələrinin daha geniş auditoriyaya çatmasına imkan yaradır.

Bu dəyişikliklər, folklorun dinamik təbiətini və şəhər mədəniyyətinin özünü yeniləmə qabiliyyətini nümayiş etdirir. Folkor, şəhər həyatının dəyişən şərtlərinə uyğunlaşaraq, daim yenilənir və zənginləşir. Burada ən mühim məsələ müasir şəhərləşmə prosesinin peşə folkloruna təsidir:

Ənənəvi Element	Müasir Transformasiya	Folklor Nümunəsi
Sənətkar emalatxanaları	Ko-working məkanı	Ofisdə 'ustamız' yoxdur, 'team lead' var!
Bazar satıcısının uydurmaları	Reklam sloqanları	Köhnə: 'Əl işi, təzə gəlmişdir!' → Müasir: 'Handmade, limited edition!'
Peşəkar usta-şagird münasibəti	Mentorluq proqramları	Şagird soruşur: 'Niyə dokumentasiya oxumalıyam?' Usta (team lead): 'Çünki StackOverflow-da hər şey yoxdur!'

Nəticə: Peşə folklorunun dinamik gələcəyi və tədqiqi üçün yeni perspektivlər

Bu araşdırmanın sonunda aşağıdakı əsas nəticələrə gəlinmişdir:

1. **Peşə folklorunun multifunksional təbiəti**. Peşə lətifələri və digər folklor nümunələri təkcə əyləncə vasitəsi deyil, həm də: peşə qruplarının kollektiv kimliklərinin formalaşmasında həlledici rol oynayır və iş mühitində sosial iyerarxiyaların qurulmasına və saxlanmasına kömək edir. Həm də bunlar peşə stressləri ilə başa çıxmaq üçün psixoloji mexanizm kimi çıxış edir və peşə biliklərinin və dəyərlərin nəsildən-nəsilə ötürülmə kanalını təşkil edir

2. **Çərçivə (frame) nəzəriyyəsinin tətbiqi**. Peşə folklorunun tədqiqində çərçivə nəzəriyyəsi xüsusi əhəmiyyət kəsb edir: ənənəvi və müasir peşələrin folklorunu eyni analitik sistemdə öyrənməyə imkan verir. Bundan başqa texnoloji inkişafın yaratdığı yeni peşə növlərinin folklorunu strukturlaşdırmağa kömək edir. Digər tərəfdən bu, mədəni müxtəlifliyi nəzərə alaraq transmədəni təhlil aparmağa şərait yaradır.

3. **Rəqəmsal dövrün təsirləri**. Texnoloji inqilab peşə folklorunun transformasiyasına köklü təsir göstərir: yeni ifadə formaları, peşələrinin “mem” əsaslı folkloru (məsələn: proqramçıların “Hello World” zarafatları), şəhərlər inkişaf etdikcə və dəyişdikcə daha da diqqət çəkən edir. Zamanla peşə folkloru da bu dəyişikliklərə uyğunlaşır və yeni formalar qazanır. Digər tərəfdən rəqəmsal texnologiyalar, peşə folklorunun yayılma və qorunma üsullarını köklü şəkildə dəyişdirir. Sosial media platformaları, onlayn forumlar və digər rəqəmsal platformalar, folklorun qlobal miqyasda yayılmasını təmin edir. Rəqəmsal arxivlər ənənəvi peşə folklorunun saxlanmasında və qorunmasında yeni imkanlar yaradır.

4. **Gələcək perspektivlər**. Qloballaşma və miqrasiya prosesləri, şəhərlərdə mədəni müxtəlifliyin artmasına səbəb olur. Bu isə, müxtəlif peşə qrupları arasında mədəni mübadilənin intensivləşməsinə və yeni folklor nümunələrinin yaran-

masına gətirib çıxarır. Bu durumda peşə folklorunun inkişaf istiqamətləri aşağıdakı sahələrdə özünü göstərir: süni intellekt (generativ folklor nümunələri), metavers (virtual peşə icmalarının folkloru), qlobal miqrasiya (kross-mədəni peşə lətifələri).

5. **Qorunma strategiyaları**. Ənənəvi peşə folklorunun yaşadılması üçün aşağıdakı yanaşmalar vacibdir: muzeyləşdirmə, yəni peşə folklorunun interaktiv rəqəmsal sərgiləri, peşə folklorunun peşə məktəblərində tədrisi və folklor nümunələrinə müəllif hüquqlarının tətbiqi vacib prinsibə dönüşür.

Peşə folkloru şəhər mədəniyyətinin dinamik güzgüsüdür. Onun tədqiqi üçün multidissiplinar yanaşma - folklorşünaslıq, sosial psixologiya, şəhər antropologiyası və rəqəmsal humanitar elmlərin sintezi zəruridir. Gələcək tədqiqatlar üçün ən perspektivli istiqamət, metaverse mühitində yaranan yeni növ peşə folklorunun öyrənilməsidir. Peşə folklorunun gələcək inkişafı üç əsas ox üzərində formalaşır:

1. **Texnoloji adaptasiya və innovasiya**. Rəqəmsal platformalar (metaverse) yeni folklor janrları yaradır.

2. **Mədəni sintez və çoxşaxəlilik.** Qlobal miqrasiya yeni hibrid formalar yaradır: peşə

3. lətifələri (qlobal məzmun + lokal ifadə). Peşə jarqonlarının transkultural transformasiyası və diaspor icmalarında ənənəvi peşə folklorunun reinterpretasiyası.

4. **Ənənə-rəqəm kontinuumu.** Qoruma strategiyalarında yeni yanaşmalar: məsələn, dulusçuluq rituallarının AR texnologiyası ilə simulyasiyası, peşə ağızlarının audio arxivləşdirilməsi, ənənəvi usta-şagird əlaqələrinin virtual mentorluğa çevrilməsi.

ƏDƏBİYYAT

Attard, Karl (2012). "The Role of Narrative Writing in Improving Professional Practice", *Educational Action Research 20 (1)*, s. 161-175.

Bateson, Gregory (1972). Steps to an Ecology of Mind: Collected Essays in Anthropology, Psychology, Evolution and Epistemology. San Francisco, CA: Chandler.

Bayat, Fuzuli (2019a). "Pazar Folkloru", *Uluslararası Halkbilimi Araştırmalar Dergisi, Cilt 2, Sayı 2,* s. 5-16.

Bayat, Fuzuli (2019b). "Sosyo-Ekonomik Bağlamlı Pazar Folkloru", *Uluslararası Halkbilimi Araştırmaları Dergisi. Yıl 2019, Cilt 2, Sayı 3,* s. 11-17.

Chong, Dennis and Druckman, James N. (2007). "Framıng Theory", *Annual Review of Political Science, Vol. 10, No.1,* s. 103-126.

Fairhurst, Gail T. and Sarr, Robert A. (1996). *The Art of Framing.* San Francisco: Jossey-Bass.

Goffman, Erving (1986). *Frame Analysis: An Essay on the Organization of Experience.* Boston: Northeastern University Press.

Martin, Rod A. (1993). "Humor, Coping with Stress, Self-Concept, and Psychological Well-Being", *Humor - International Journal of Humor Research 6 (1),* s. 89-104.

McCarl, Robert (2021). "Meslekî Folklor". Çev. S. Sarıtaş, B. Ayaz, *Folklor / Edebiyat, Yıl (year) 27, Sayı (No) 106*, s. 621-632.

Schweikart, Scott J. (2020). "Could Humor in Health Care Become Malpractice?" *AMA Journal of Ethics, Volume 22, Number 7,* s. 596-601.

Rus dilində

Баранов, Анатолий Григорьевич (1993). *Функционально-Прагматическая Концепция Текста.* Ростов-на-Дону: Издательство Ростовского Университета.

Болдырев, Николай Николаевич (2004). "Концептуальное Пространство Когнитивной Лингвистики", *Вопросы Когнитивной Лингвистики, №1,* s. 18-36.

Демьянков, В. З. (1995). "Доминирующие Лингвистические Теории в Конце XX века", *Язык и Наука Конца 20 Века.* Москва, s. 239-320.

Минский, Марвин (1979). *Фреймы для Представления Знаний.* Пер. с Англ. О. Н. Гринбаума. Москва: Энергия, 1979.

Никитин, М. В. (2004). "Развернутые Тезисы о Концептах", *Вопросы Когнитивной Лингвистики, №1,* s. 53-64.

Elektronik qaynaqlar

URL-1: Mass Communication Theory (Online). (2017, January 31). Framing Theory. Retrieved from Mass Communication Theory: https://masscommtheory.com/theory-overviews/framing-theory/

URL-2: Dijk, Teun A. van. Cognitive Context Models and Discourse, https://discourses.org/wp-content/uploads/2022/07/Teun-A.-van-Dijk-1997-Cognitive-context-models-and-discourse.pdf